# Cənublu şairlərimiz ölməz Şəhriyar və Səhənd yaradıcılığı ədəbi dilimizin böyük mühafizəçisidir...

**Güney Azərbaycanın zaman-zaman boğulan səsi Məhəmmədhüseyn Şəhriyar, Bulud Qaraçorlu Səhənd və daha neçə-neçə görkəmli şairin şeirləri ilə yenidən doğuldu. Səsimizi, dilimizi öz əsərlərində Şəhriyarlar, Səhəndlər, Savalanlar, Sönməzlər yaşatdı, yaşatdılar ki, əbədi xəzinəmiz, əbədi istinad yerimiz, milli kimlik pasportumuz olan ana dilimiz yaşasın, nəsillərdən-nəsillərə keçsin.**

Ana dilli poeziyadan, ədəbiyyatdan danışarkən gözümüzün önündən neçə-neçə güneyli şair və yazıçı keçir, onların hər birinin yaradıcılığını xəyali də olsa vərəqləyirik. Bu ədəbi simaların hər biri barədə növbəti saylarımızda ayrıca yazılar təqdim edəcəyik. Bu dəfə Güney Azərbaycan ədəbiyyatının iki nəhəng simasından, bu tayda da çox sevilən, şeirləri dillər əzbərinə çevrilən ustad Şəhriyarın və Səhəndin ana dilli poeziyamızın inkişafında, dilimizin mühafiəzində xüsusi rol oynayan yaradıcılığından danışacağıq.

Ustad Şəhriyarın "Heydər babaya salam" poeması Güney Azərbaycanın dünyadakı və türk ellərindəki səsinə çevrilməklə yanaşı, həm də anamızın dilində yazılan çox unikal bir əsərdir. Bu əsər yazıldığı gündən indiyə kimi dil gözəlliyinə, tarixiliyinə və saysız poetik məziyyətlərinə görə çox aktualdır.

Heydərbaba, dağın, daşın, sərəsi
Kəklik oxur, dalısında fərəsi,
Quzuların ağı, bozu, qərəsi,
Bir gedəydim dağ-dərələr uzunu,
Oxuyaydım "Çoban, qaytar quzunu"...

Dilimizin bütün gözəlliyi, şəhdi-şirəsi, incəliyi bu beş misrada özünü elə ifadə edib ki, adam məftun olmaya bilmir.

Şəhriyar poeziyasında milli təmayül çox güclüdür və bu özünü şairin poetik dünyasında çox əhatəli şəkildə göstərir. Şəhriyar Azərbaycandilli şeirin o qədər nəhəng təmsilçisidir ki, onun yaradıcılığı nəinki güneyli, eləcə də qüzeyli şairlərə böyük təsir göstərib. Şəhriyar Azərbaycan dilinə qarşı molla rejiminin qoyduğu qadağalara hər zaman öz şeirləri ilə etiraz edib.

Şəhriyarın ürəyi də səninki tək yaralıdır,
Azadlıqdır sənə məlhəm, mənə dərman, Azərbaycan!

Bu, şairin harayıdır, bu gün də bu haray aktualdır, xalqımızın içində, ürəyində alovlanan bir duyğudur.

Ustad Şəhriyarın "Türkün dili" şeiri də ana dilimizin mühafizəsində önəmli rol oynayıb:

Türkün dilitək sevgili, istəkli dil olmaz,
Ayrı dilə qatsan bu əsil dil əsil olmaz.
Öz ləfzini farsa, ərəbə qatmasa şair,
Şerin oxuyanlar, eşidənlər kəsil olmaz...

Şəhriyarın şeiriyyəti Güney Azərbaycanın zaman-zaman himninə, mayakına çevrilib. Çox təəssüf ki, bəzən fars dilində yazdıqlarına görə onun "fars ədəbiyyatına" xidmət etdiyini də deyənlər olur. Amma bir məqamı əsas götürmək lazımdır ki, Şəhriyar Azərbaycan-türk şairidir, onun şeirləri milli ədəbiyyatımıza, milli dilimizə xidmət edib, dilimizin yaşadılmasına mühüm töhfə verib.

Filologiya elmləri doktoru, professor, Şəhriyarşünas Elman Quliyev "Şəhriyar poeziyası və milli təmayül" kitabında yazır: "...Şəhriyar yaradıcılığı Azərbaycan xalqının tarixi gerçəklik, həyati baxış və gələcək arzu və istəklərini əks etdirmək baxımından xüsusi olaraq xarakterikdir. Onun sənət dünyası sirr və möcüzələr dünyasıdır. Şəhriyarın hər cür qadağalar şəraitində mənsub olduğu xalqın cəsarətli təəssübkeşi kimi tanınması, o cümlədən yaradıcılığında bənzərsiz sənətkarlıqla bu halın ifadəçisinə çalışması, onun sənətinin sirr və mö'cüzəsinin ən başlıca göstəricisidir. XIX əsrdən başlayaraq Cənubi Azərbaycan ədəbiyyatında özünü göstərən keyfiyyət dəyişiklikləri sonrakı əsrdə yeni bir mərhələyə qədəm qoydu. Xüsusi olaraq Azərbaycan dilinin ədəbi dil normalarına uyğun tənzimlənməsində dövrün söz sənətkarlarının böyük xidmətləri olmuşdur. Keçən əsrin 50-ci illərində İranda siyasi rejim dəyişmələrinin təzyiqlərinə baxmayaraq, Şəhriyarın bu yolda xüsusi hünər göstərən sənətkarlardan biri kimi tanınması təsadüfi olmamışdır. M.Şəhriyar Cənubi Azərbaycanda təkcə doğma dilimizin təəssübkeşi kimi yox, həm də bu dilin Cənubi Azərbaycanda yeni ən'ənə halına çevrilməsində xidməti olan sənətkardır. Şəhriyar yaradıcılığının milli dəyərlərindən danışarkən ilk növbədə onun vətənpərvərlik mövqeyini əks etdirən əsərlərindən bəhs açmaq lazımdır..."

Şəhriyarın təpədən-dırnağa hünərli bir Azərbaycan oğlu olduğu onun hər bir misrasında özünü ifadə edir. Şəhriyar dahi Azərbaycan şairidir və onun sözünün işığı güneyli şairlərin yeni ədəbiyyat nümunələri yaratmasına ciddi təkan verir.

Ömrünün sonuna qədər ürəyi qüzey Azərbaycan, Bakı həsrətilə döyünən Şəhriyara, bütün Azərbaycanın, türk dünyasının fəxri Şəhriyara çox təəssüf ki, Azərbaycanın bu tayına gəlmək nəsib olmadı, ustadın özü gəlməsə də, sözü, sorağı, məktubları gəldi, şeirləri, poemaları kitablaşdı, əl-əl dolaşdı, könüllərdə əbədi taxt qurdu.



Gözüm aydın, görürəm sevgili qardaşlarımı,
Basmışam bağrıma öz doğma qarındaşlarımı.
Açmışam qollarımı xəlqimlə üzük həlqəsi tək,
Salmışam həlqəyə qiymətli üzük qaşlarımı...

Böyük şairin "Gözüm aydın" şeiri xəyalı bir səyahətin, lakin doğma vüsal arzusunun bir inkasıdır ki, Şəhriyar hər zaman qüzey Azərbaycandakı qardaşlarını bağrına basmaq istəyib...

M.H.Şəhriyarın poeziyası, sözü, güneylilərin milli qeyrət simvollarından birinə çevrilən ədəbi xəzinəsi tükənməzdir və bu xəzinəni daşımağa kitablar belə çatmaz, necə ki, indiyə qədər saysız kitablara bu xəzinəni sığışdırmağa çalışıblar. Şəhriyar o taylı, bu taylı Azərbaycanımızın oğludur və anamızın dilini müdafiə edən dahi sənətkardır...

### Şəhriyardan Səhəndə...

Bu tay Azərbaycanda da çox yaxşı tanınan Səhəndin (Bulud Qaraçorlu Səhənd) söz dünyasından da danışmaq istəyirik. Güney Azərbaycanda ana dilli poeziyamızın çox gözəl örnəklərini yaradan Səhəndin "Seçilmiş əsərləri" Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamına əsasən 2006-cı ildə Bakıda nəşr olunub. Bundan başqa, şairin neçə-neçə əsərləri kitab halında çap edilib.

"Şah dağım, çal papağım,
el dayağım şanlı Səhəndim!
Başı tufanlı Səhəndim!".

Ustad Şəhriyarın misralarıdır Səhəndə həsr olunub. Təxəllüsünü başı qarlı, ətəyi güllü-çiçəkli, qəlbi dağlı Səhənd dağından götürən Bulud Qaraçorlu ədəbiyyatımızın sözün həqiqi mənasında yıxılmaz dağı olub.

Filologiya elmləri doktoru, professor Esmira Fuad məqalələrindən birində Səhənd barədə belə yazır: "B.Q.Səhənd yaradıcılığının zirvəsi olan "Sazımın sözü" poemalar silsiləsini son illərdə şairin həyat və yaradıcılığını ciddi şəkildə araşdıran Fikrət Süleymanoğlu "Səhəndin şah əsəri" adlı mükəmməl ön sözvə şərhlər yazaraq "Dədəmin kitabı" adı ilə nəşr etdirib, əsər haqqında ədəbiyyatşünasların qənaətlərinə də yeri gəldikcə istinad edərək obyektiv fikirlərini sərgiləyib".

Anadan doğulandan belə
Özüm də bilməyə-bilməyə.
Dil açıb danışdığım dildə
Danışmağım da yasaq imiş, yasaq!

Dilimizi qadağan etmək istəyənlərə bir poetic hayqırtır bu. Səhəndin yaradıcılığında xalqımızın milli azadlıq hərəkatı, milli vicdan, milli təəsübkeşlik kimi hisslər əhəmiyyətli yer tutur. Ən ağır illərdə Səhənd ana kitabəmiz olan "Kitabi-Dədə Qorqud"u nəzmə çəkməklə məşğul olur və bu poetic irsi təbliğ edir, dilimizin, mədəniyyətimizin bu ölməz abidəsini yaşadır. Dil çox böyük mədəni və tarxi hadisədir və dili yaşatmaq, onu gözləyən təhlükələrdən mühafizə etmək vəzifəsi Şəhriyar, Səhənd kimi böyük şairlərin üzərinə düşüb. Bu səbəbdən də Səhəndin qələmindən "Dədəmin kitabı", "Sazımın sözü" süzülüb. "İlk məktəb ana qucağıdır" deyən şair ana dilimizin yaşaması uğurunda nə qədər mücadilələr verib, nə qədər şairi ana dilimizdə yazmağa təşviq edib, həvəsləndirib. Bu gün onun yüzlərlə ardıcılı ana dilli poeziyamızın keşiyində dayanıb.

Mən azadlıq cəbhəsində bir fədai əsgərəm
Bir azadlıq istəyirəm, bir də azad bir Vətən!

Şair deyir ki, azad Vətən olarsa ana dili də azad olar, xalqın düşüncəsi də buxovlanmaz. Azadlıq aşiqi Səhənd Güney Azərbaycan ədəbiyyatının, poeziyasının Şah dağıdır, Səhəndidir, Savalanıdır, ucalığıdır.

Güney Azərbaycanın böyük oğlu Səhəndin Bakı sevdalı şeirləri də çoxdur...

Bakıdan gül dər mənə,
Sal suya, göndər mənə
Şadlıq göndərənməsən,
Göndər qəm-kədər mənə.

Bakıdan Təbrizə, qüzeydən güneyə qəm-kədər yox, sevgi-sevinc göndərərik ustad, dəstək göndərərik, həmrəylik göstərərik. Ana dil, azad Vətən istəyini, arzusunu əmanət etdiyiniz gənc nəsil həm dilimizə, həm mədəniyyətimizə sahib çıxır, həm də azad Vətən uğrunda meydanlarda mücadilə verir...Sizin sözünüz, şeiriniz o gənclərə, güyenli qardaş-bacılarımıza bir yol xəritəsidir, sağlığınızda dilimizin-sözümüzün keşiyində durmağınız bir örnəkdir, əbədi bir örnək...

Ustad Şəhriyarın da, ustad Səhəndin də güney Azərbaycanda dilimizin mühafizəsində oynadıqları rol danılmazdır və bu gün də onların ardıcılları bu yoldadır...

*İradə SARIYEVA*